# Oğruların ən pisi, (tələsik namaz qılıb) namazından oğruyandır". Ondan: Kişi namazından necə oğruya bilər? deyə soruşulunca, Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun): "Namazın rükusunu və səcdəsini tam olaraq etməz" deyərək cavab verdi

Əbu Hureyrədən (Allah ondan razı olsun) rəvayət edildiyinə görə Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) belə buyurmuşdur: "Oğruların ən pisi, (tələsik namaz qılıb) namazından oğruyandır". Ondan: Kişi namazından necə oğruya bilər? deyə soruşulunca, Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun): "Namazın rükusunu və səcdəsini tam olaraq etməz" deyərək cavab verdi.
[Səhih] [İbnu Hibbən rəvayət etdi]

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) oğruluq edənlərin ən pisinin, namazından oğruluq edən kimsənin olduğunu bildirmişdir. Çünki başqasının malını oğrayan kimsə bəlkə bu dünyada o maldan özünə fayda verə bilər. Amma namazından oğrayan kimsə isə özünün namazdan ona çatan savab və əcrdən olan haqqını oğurlamış olur. Səhabələr: "Ey Allahın elçisi! Kişi namazından necə oğraya bilər axı?" diyə soruşunca, Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun): "Kişi namazın rükusunu və səcdəsini tələsik etdiyi üçün namazın rükusunu və səcdəsini tam kamil bir şəkildə əda etməz" deyərək cavab verdi.



النجاة الخيرية
ALNAJAT CHARITY
لجنة الدعوة الإلكترونية
EDC E-Da'wah Committee